# GÖYƏRÇİN

İSSN-0207-4710
2011-ci il
1






Hekayə



Şeir



Nağıl

Nağıl vaxtı

# LEOPARD VƏ ANTİLOP

*(Xalq nağılı)*

Uzunmüddətli quraqlıq olduğu üçün nə insanlar, nə də heyvanlar yeməyə bir şey tapa bilmirdilər.

Antilop fikirləşdi ki, Mavanın yanına getsin və ondan xahiş etsin ki, yağış yağdırsın. O, hökmdarın yanına gedib dedi:

-Bizim torpağımıza yağış yağdır. Əgər belə eləsən, yeni məhsul yetişəndə məni bayram münasibətilə yeyərsən.

Mava razılaşdı. Çoxlu yağış yağdırdı. Həmin il bol məhsul yetişdi. Bayram vaxtı hökmdarın yadına Antilopun sözləri düşdü. Öz çaparlarını onun yanına göndərdi.

Mavanın xidmətçiləri Antilopun yanına gəldilər ki, onu aparsınlar. Antilop dedi:

-Mən hələ çox balaca və arığam. Qoyun bir az yekəlim və kökəlim, sonra gəlib məni aparарsınız.

Xidmətçilər qayıdıb Antilopun sözlərini başçılarına danışdılar. Mava gözləmək qərarına gəldi. Bir müddət sonra qulluqçular yenə Antilopun yanına gəldilər. Antilop hər dəfə hələ kökəlmədiyini söylədi, xahiş elədi ki, bir az da gözləsinlər.

Bu münvalla bir neçə il keçdi. Bir dəfə qulluqçular Antilopun yanından qayıdanda onun qonşusu Leoparda rast gəldilər. Leopard soruşdu:

-Dostlar, xeyir ola, nə çox buralara gəlib - gedirsiniz?

Qulluqçular hər şeyi olduğu kimi danışdılar. Leopard gülüb dedi:

-Antilop heç vaxt bundan artıq böyüyə bilməz. Gözləməyin, get-gəlin mənası yoxdur. Onu elə bu gün tutub başçınıza aparın.

Qulluqçular başçılarının yanına gedib Leopardın sözlərini ona çatdırdılar. Başçı qəzəbləndi. Əmr elədi ki, elə bu saat yola düşüb Antilopu gətirsinlər.

Qulluqçular geri qayıtdılar. Antilopu tutub başına kəndir bağladılar və onu Mavanın yanına aparmaq istədilər. Yolda onlar Leopardla qarşılaşdılar. Leopard kinayə ilə Antilopa dedi:

-Hara gedirsən, əziz dost?

-Mava çağırıb ki, yediyi ətlərin sümüyünü gəmirim.

-Sənin ki dişlərin yoxdur?!

-Neyləyim, dişi olan dostlarımı axtarsam da heç birini tapa bilmədim.

Leopard incidi:

-Bəs sən bilmirsən ki, mənim dişlərim necə itidir?!

O, kəndiri Antlopun boynundan çıxarıb öz boynuna keçirdi.

Qulluqçular Leopardı Mavanın həyətinə gətirdilər. Leopard gördü ki, bir uşaq ağlayır. Anası onu sakitləşdirib deyir:

-Ağlama, oğlum, bu gün sənin atan nəhəng bir heyvan kəsəcək, gözəl bir qonaqlıq olacaq.

Bu sözləri eşidən Leopard dəhşətə gəldi və başa düşdü ki, Antilop ona kələk gəlib.

O, tez ipi boynundan çıxarıb qaçdı. Bəxti gətirdi ki, onu görən olmadı. Leopard yolda Antilopa rast gəldi. Onun boğazından yapışıb öz mağarasına apardı. Odun yığdı ki, Antilopu bişirib yesin. Elə bu vaxt eşitdi ki, Antilop dodağının altında nəsə danışır. Leopard təəccüblə soruşdu:

-Antilop, sən kiminlə danışırsan?

Antilop cavab vermədi. Öz-özünə nə isə danışdı. Leopard sualı birdə təkrar edəndə Antilop dedi:

-Mavanın qulluqçuları sənin dalınca gəliblər. Tez ol, qaç, öz canını qurtar!

Leopard cəld öz yuvasından çıxıb meşəyə qaçdı. Bir daha geri qayıtmadı. Antilop Leopardı belə aldatdı.



Rəssam Afər





*Tərcümə edib işləyəni:*
*R.Y. ƏLİYEV*